Dekabr, 2022

“ÜMİD” SOSİAL İNKİŞAFA DƏSTƏK İCTİMAİ BİRLİYİ

İNFORMASİYA BÜLLETENİ №1, 2022

# “İcma səviyyəsində sağlam həyat tərzi üzrə maarifləndirmə və narkotik vasitələrdən istifadə üzrə profilaktiki tədbirlərin təşkili”

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi

“Ümid” Sosial İnkişafa Dəstək İctimai Birliyi cari il ərzində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə 2 layihəni uğurla icra etmişdir.

***I. "İcma səviyyəsində sağlam həyat tərzi üzrə maarifləndirmə və narkotik vasitələrdən istifadə üzrə profilaktiki tədbirlərin təşkili”***

Layihə çərçivəsində Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsində yerləşən "Qobu Park -1”, “Qobu Park - 2” və “Qobu Park - 3” yaşayış komplekslərində məcburi köçkün icmalarında 4 fokus qrup görüşü (iştirakçıların sayı: 68 nəfər - 38 kişi, 30 qadın) və “Narkomaniya və sağlam həyat tərzi” mövzusunda 16 təlim keçirilmişdir (iştirakçıların sayı: 206 nəfər - 127 kişi, 79 qadın).

Keçirilmiş təlimlər zamanı təlimçi/ekspertlər tərəfindən mövzu üzrə slaydlarla təqdimat edilmiş, iştirakçılara narkotik vasitələrin növləri, onlardan istifadənin fəsadları (fiziki/psixoloji asılılıq, ağrılar, xəstəliklər, depressiya, intihar və s.), istifadəçinin müəyyən edilməsi üçün diqqət edilməli əlamətlər, narkomaniyanın müalicəsi, reabilitasiyası və s. məlumatlar verilmişdir. Bundan başqa, yeniyetmə və gənclərə zərərli vərdişlərdən, o cümlədən narkomaniyadan uzaq olmaları və asudə vaxtlarını səmərəli təşkil etmələri üçün müvafiq tövsiyələr verilmiş, bütün iştirakçılara və ərazidə yaşayan məcburi köçkünlərə layihə çərçivəsində hazırlanmış 1000 ədəd narkomaniya üzrə maarifləndirici bukletlər paylanılmışdır.



**Antinarkomaniya üzrə təlim**

Təşkil edilmiş təlimlərin təsirinin ölçülməsi məqsədi ilə 193 nəfər iştirakçı ilə aparılmış yazılı qiymətləndirmə nəticəsində iştirakçıların mövzu üzrə bacarıqlarının 71% artdığı müəyyən edilmişdir. Həyata keçirilmiş bu layihədən 990 nəfər faydalanmışdır.



**Təhsil İnstitutu:Dəyirmi masa**

***II. “Təhsildə idarəetmənin ictimailəşdirilməsinə dəstək təşəbbüsü”***

Layihə çərçivəsində Azərbaycan Respublikası Təhsil İnstitutunda “İcma-məktəb münasibətlərinin mövcud vəziyyətinin öyrənilməsi və icma üzvlərinin təhsil prosesində iştirakına dair sorğu vərəqələrinin müzakirəsi” mövzusunda dəyirmi masa keçirilmiş, tədbirdə iştirak etmiş təhsil ekspertləri tərəfindən verilmiş təkliflər əsasında sorğu vərəqələri təkmilləşdirilmişdir. Layihənin fəaliyyət planına uyğun olaraq Suraxanı rayonu Hövsan qəsəbəsində 280 saylı tam orta məktəb və Xəzər rayonu Türkan qəsəbəsində isə 262 saylı tam orta məktəbdə icma-məktəb münasibətlərinin mövcud vəziyyətinin öyrənilməsi məqsədilə 423 nəfərin iştirakı ilə sorğular keçirilmişdir.

Sorğularda 72 müəllim, 319 valideyn, 2 hədəf orta məktəb direktoru və 30 icma üzvü (sahibkarlar, nüfuzlu şəxslər, Bələdiyyə üzvü və s.) iştirak etmişdir. 29 noyabr 2022-ci il tarixində Azərbaycan Respublikası Təhsil İnstitutunda təşkil edilmiş dəyirmi masada icma-məktəb münasibətlərinin mövcud vəziyyətinin öyrənilməsi və icma üzvlərinin təhsil prosesində iştirakına dair keçirilmiş sorğu nəticələrinin təqdimatı olmuşdur. Tədbirdə iştirak etmiş təhsil ekspertləri məktəb-icma münasibətlərinin yaxşılaşdırılması üçün zəruri tədbirlərin həyata keçirilməsi, valideynlərin və icma üzvlərinin təhsil prosesində rolunun artırılması barədə fikirlərini bildirmiş, təkliflər vermişlər.

Layihənin nəticəsi olaraq keçirilmiş sorğuların nəticələri və təhsil ekspertlərinin rəyləri əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim etmək üçün təkliflər paketi hazırlanmışdır. Layihədən ümumilikdə 430 nəfər faydalanmışdır.

## Bu sayımızda:

*QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə icra olunan layihələr* — *səh. 1*

*“Vətəndaş cəmiyyəti institutlarının ictimai həyatda rolunun daha da gücləndirilməsi vasitəsilə açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin genişləndirilməsi” layihəsi* — *səh. 2*

*Uğur Hekayələri* — *səh. 3*

*“Ümid” SİD layihə təklifi təqdim etdiyi iki müsabiqənin qalibi olmuşdur.* — *səh. 4*

# *“Vətəndaş cəmiyyəti institutlarının ictimai həyatda rolunun daha da gücləndirilməsi vasitəsilə açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin genişləndirilməsi”*

“Ümid” Sosial İnkişafa Dəstək İctimai Birliyi, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Azərbaycandakı missiyasının maliyyələşdirdiyi Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti (ŞVC) proqramı çərçivəsində “Vətəndaş cəmiyyəti institutlarının ictimai həyatda rolunun daha da gücləndirilməsi vasitəsilə açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin genişləndirilməsi” layihəsini uğurla həyata keçirmişdir (02 mart - 31 iyul 2022-ci i).

Layihənin əsas məqsədi Yerli səviyyədə yaxşı idarəçilik (good governance) prinsiplərinin təbliği və idarəetmənin təkmilləşdirilməsinə töhfə vermək, spesifik (xüsusi) məqsədi kimi isə Yerli hökumət və özünüidarəetmə orqanlarının “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın (FP) icrası üzrə öhdəliklərin yerinə yetirilməsinə və fəaliyyətlərinin təkmilləşdirilməsinə dəstək olmuşdur.

Layihə çərçivəsində Quba-Xaçmaz regionu üzrə 4 rayondan (Quba, Xaçmaz, Qusar və Şabran) 12 icmada İcma İnkişaf Şuraları (İİŞ), Bələdiyyə, Sahibkarlıq subyektləri və QHT-lər ilə “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası, bu barədə məlumatlılıq səviyyəsi və s. barədə sorğular (65 nəfərlə) keçirilərək təhlil edilmiş, nəticələri barədə təqdimat hazırlanmışdır.

Layihənin növbəti mərhələləri isə onlayn (ZOOM proqramı ilə) tədbirlərin təşkili ilə davam etmişdir. Belə ki, 12 hədəf icmanın hər birində 2 onlayn görüşlər təşkil edilmiş, bələdiyyələrin öhdəlikləri, şəffaflığın və əhaliyə xidmət keyfiyyətinin artırılması məqsədi ilə 11 hədəf Bələdiyyə və 1 icma üçün üçün facebook səhifələri, 3 Bələdiyyə üçün twitter səhifələri yaradılmışdır. Bu səhifələrdə Bələdiyyə qulluğuna qəbul, bələdiyyələr haqqında qanun, bələdiyyə torpaqlarından istifadə, bələdiyyə aktları, Bələdiyyə Şurasının qərarları və s. kimi 50-dən çox məlumat paylaşılmışdır.

Layihənin davamında Quba-Xaçmaz regionu üzrə 4 rayondan (Quba, Xaçmaz, Qusar və Şabran) 12 hədəf icmada 12 onlayn görüş təşkil edilərək, iştirakçılara kommunal xərclərinin, cərimələrin onlayn ödənilməsi, elektron hökumət portallarındakı xidmətlər və onlardan istifadə qaydaları barədə məlumatlar verilmişdir. Görüşlərin nəticəsi olaraq Quba rayonu Talabıqışlaq və Qusar rayonu Əniq Bələdiyyələri icmalarında ödəniş terminalının quraşdırılması üçün aidiyyatı üzrə rəsmi müraciət etmişlər.

Layihənin son tədbirində isə 2022-ci ilin iyul ayında Quba rayonunda hədəf icma üzvləri, yerli QHT-lər, sahibkarlar, Bələdiyyələr və İcra Nümayəndələrinin iştirakı ilə Seminar keçirilmişdir. Seminarda icra edilmiş layihənin nəticələri və əldə edilmiş uğurlar müzakirə edilmiş, Açıq Hökumətin Təşviqinə Dair “Yerli səviyyəli Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması” yaradılmış, Quba Regional Təlim və İnkişaf Mərkəzinin direktoru Eynullah Xeyrullayev platformanın koordinatoru seçilmişdir.





***“Ümid” SİD İB-nin missiyası aztəminatlı insanların sosial, iqtisadi, təhsil və kənd təsərrüfatı üzrə problemlərinin həllinə dəstək verməkdən ibarətdir.***

# Uğur Hekayələri

## Kənd bələdiyyələri daha şəffaf fəaliyyət göstərmək əzmindədirlər

Son illər Azərbaycanda "Açıq Hökumət Tərəfdaşlığının (AHT) meyarlarının, o cümlədən şəffaflığın, hesabatlılığın, vətəndaş iştirakçılığının, dürüstlüyün gücləndirilməsi istiqamətində xeyli işlər görülsə də, regionlarda bu barədə məlumatlılıq yetərli səviyyədə deyildi. Xüsusilə, dağlıq ərazilərdəki icma üzvləri hökumətin həyata keçirdiyi fəaliyyətlər barədə məlumatların əldə edilməsində çətinlik çəkirdilər. Bu çətinlikləri Quba-Xaçmaz regionunda 4 rayonun (Quba, Qusar, Xaçmaz, Şabran) 12 icmasında araşdıran "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi yuxarıda qeyd edilən problemlərin həllinə töhfə vermək məqsədi ilə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Azərbaycandakı missiyası (USAID) tərəfindən maliyyələşdirilən Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti (ECSOFT) proqramı çərçivəsində 2 mart 2022-ci il tarixindən "Vətəndaş cəmiyyəti institutlarının ictimai həyatda rolunun daha da gücləndirilməsi vasitəsilə açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin genişləndirilməsi" layihəsinin icrasına başlayaraq uğurlu nəticələr əldə etmişdir.



Talabıqışlaq Bələdiyyəsi ilə ilkin görüş

Layihə çərçivəsində 12 hədəf icmada facebook səhifələri, 2 Bələdiyyə üçün twitter səhifəsi və 3 icma üçün whatsApp qrupları yaradılmışdır. Bununla da, icma və Bələdiyyələr öz fəaliyyətləri ilə bağlı məlumatları icma üzvlərinə daha dəqiq və daha əlçatan yollarla çatdırılması imkanları qazandılar. Artıq Bələdiyyələr (misal olaraq, Quba r-nu Talabıqışlaq Bələdiyyəsi) facebook səhifələrini idarə etməyə, hətta öz fəaliyyətləri barədə yarımillik hesabatlarını (https://www.facebook.com/Talab%C4%B1q%C4%B1%C5%9FlaqB%C9%99l%C9%99diyy%C9%99si-Talabigishlag-Municipality-107756055249340) paylaşmağa başlamışlar.

Həmçinin, hədəf kənd sakinlərinin kəndə təbii qazın çəkilməsi, yol-abadlıq işlərinə, əhalinin içməli su ilə təminatına, elektrik xətlərinin təmirinə, yeni transformatorun alınmasına, yeni məktəb tikintisinə, çay üzərində körpülərin salınmasına, avtomobil yolunun əsaslı şəkildə yenidən qurulması və asfaltlaşdırılması işinə və s. köməklik göstərilməsi barədə təkliflərini facebook səhifəsi vasitəsilə aidiyyəti şəxslərə çatdırmaq imkanları yaranmışdır. Bu kimi addımlar, öz növbəsində rayon ictimaiyyətində böyük ruh yüksəkliyi yaradır.

---

## Regionlarda "Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması"nın yerli nümayəndəlikləri formalaşdırılır

Bütün maraqlı tərəflərlə, o cümlədən Bələdiyyələr, İcma Əsaslı Təşkilatlar (İƏT), QHT-lər, "Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması", mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə sıx əməkdaşlığın qurulması "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyinin ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Azərbaycandakı missiyası (USAID) tərəfindən maliyyələşdirilən Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti (ECSOFT) proqramı çərçivəsində icra etdiyi "Vətəndaş cəmiyyəti institutlarının ictimai həyatda rolunun daha da gücləndirilməsi vasitəsilə açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin genişləndirilməsi" layihəsinin müvəffəqiyyət qazanmasında əsas amillərdən biri olmuşdur. Paralel olaraq, ECSOFT proqramı çərçivəsində "Bələdiyyələrdə şəffaflıq və ictimai iştirakçılıq imkanlarının artırılması" layihəsini icra edən Quba QHT Təlim və Resurs Mərkəzi (QTRM) ilə işgüzar əməkdaşlıq qurulmuşdur. Bu əməkdaşlıq zamanı QTRM-in rəhbərliyi ilə görüşlər keçirilmiş, Quba-Xaçmaz regionunda Yerli Səviyyəli "Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması"nın yaradılması və idarə olunması imkanları müzakirə edilmişdir.

İcra olunan layihə çərçivəsində "Ümid" SİD regionlarda ictimai iştirakçılığın və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində əldə etdiyi təcrübəyə əsaslanaraq Quba-Xaçmaz regionunda ilk dəfə olaraq Yerli Səviyyəli "Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması"nı formalaşdırmışdır. Quba, Xaçmaz və Qusar rayonlarından olan 2 yerli QHT, 4 dövlət qurumu, 4 yerli Bələdiyyə və 4 İcma İnkişaf Şurasının üzv olduğu platformanın koordinatorluğuna QTRM-in direktoru Eynulla Xeyrullayev cavabdeh olacaqdır.



Yekdil səsvermə ilə Eynulla Xeyrullayev koordinator seçildi

Ümid edirik ki, yeni yaradılmış bu platforma regionda dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təkmilləşdirilməsi, ictimai iştirakçılığın gücləndirilməsinə və korrupsiyaya qarşı mübarizədə sosial innovasiyaların tətbiqinə öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## “Ümid” SİD-in Elm və Təhsil Nazirliyinin elan etdiyi “2022/2023-cü illərdə təhsilin inkişafı üzrə ictimai təşəbbüslərin dəstəklənməsi” qrant müsabiqəsi çərçivəsində “Məktəb nüfuzunun artırılması və məktəb icmasının inkişaf etdirilməsi” nominasiyası üzrə təqdim etdiyi layihə təklifi qalib gəlmişdir.

t-network

“Ümid” Sosial İnkişafa Dəstək İctimai Birliyi, 07 dekabr 2022-ci il tarixli müqaviləyə əsasən T-NETWORK - təhsil işçilərinin təcrübə və kommunikasiya platforması ilə birgə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin maliyyələşdirdiyi “Məktəb icmasının inkişaf etdirilməsi vasitəsilə məktəbin nüfuzunun artırılması təşəbbüsü” layihəsinin icrasına başlayıb. Layihə 12 ay müddətində icra olunacaqdır. Layihənin hədəf ərazisi Bakıətrafı 2 qəsəbə (Türkan və Hövsan) nəzərdə tutulmuşdur. Layihənin əsas məqsədi məktəbin icmanın nüfuz mərkəzi səviyyəsinə (school as a community hub) qaldırılmasıdır.

Belə ki, layihə çərçivəsində 2 hədəf icmada (Türkan və Hövsan qəsəbəsi) hər biri 9 nəfərdən ibarət (cəmi 18 nəfər) 2 Məktəb İnkişaf Şurası (MİŞ) formalaşdırılacaq və onların bacarıqlarının artırılması üçün iki mərhələli 11 mövzuda 22 təlim sessiyası (Səfərbərlik, Ehtiyacların müəyyənləşdirilməsi, Layihə təklifinin hazırlanması, Liderlik və komanda işi, Dayanıqlıq və İstismar Planı, Effektiv təqdimat və s.) təşkil ediləcəkdir. Hər bir icmada icma və məktəbin ehtiyaclarının müəyyələşdirilməsi üçün sorğular keçiriləcək, müəyyən edilmiş prioritet ehtiyacların həlli üçün tədbirlər planı və layihə təklifləri hazırlanacaqdır. Hər bir icmada məktəb və icmanın iştirakı ilə bir layihə (məktəb kitabxanasının zənginləşdirilməsi, məktəbin elmi texniki bazasının gücləndirilməsi, məktəb həyatində yaşıllığın salınması, idman qurğularının quraşdırılması və s.) icra ediləcəkdir. Layihə müddəti ərzində isə məktəb nüfuzunun yüksəldilməsi və məktəb icmasının inkişafına töhfə verəcək silsilə tədbirlər (ekoloji aksiyaların təşkili, elm və digər sahələrdəki əlamətdar günlərin keçirilməsi, incəsənət və idman dərnəklərinin yaradılması, yazıçı və şairlərlə məktəblilərin görüşünün təşkili, hekayə, sinifdən xaric kitab oxuma, rəsm və s. müsabiqələrin keçirilməsi və s.) həyata keçiriləcəkdir.

Layihənin nəticəsi olaraq 18 nəfər MİŞ üzvünün icma ehtiyaclarının müəyyənləşdirilməsi, layihə təklifinin hazırlanması, dayanıqlıq və s. mövzularda bacarıqları 50% artacaq, 4 ehtiyac üzrə 4 layihə təklifi hazırlanacaqdır. 2 hədəf icmanın hər birində icra ediləcək layihələrin (4 layihə) davamlılığı üçün 4 Dayanıqlıq və İstismar Planı, məktəb-icma münasibətlərinin gücləndirilməsi və davamlılığı üçün isə 3 illik 2 Fəaliyyət Planı hazırlanacaqdır. 2 hədəf icmanın (Türkan və Hövsan qəsəbələri) hər birində 2 layihə olmaqla cəmi 4 layihə icra ediləcək, bu layihələrdən 2 icmada (Türkan və Hövsan qəsəbələri) fəaliyyət göstərən 2 məktəbin 1500 nəfər şagirdi, 1000 nəfər isə icma üzvü (valideynlər, sahibkarlar və s.) faydalanacaqdır. Bununla da, icma-məktəb əməkdaşlığı gücləndiriləcək və məktəb icmanın nüfuz mərkəzinə çevriləcəkdir.

## “Ümid” SİD-in BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının elan etdiyi AZE/276/2022 saylı “Azərbaycanda Məcburi köçkünlər və münaqişənin təsirinə məruz qalmış şəxslər üçün İcma Əsaslı Müdafiə” adlı müsabiqəsinə təqdim edilmiş konsepsiya sənədi qalib seçilmiş və BMT QAK ilə birgə layihə təklifi tərtib edilmişdir.

“Ümid” Sosial İnkişafa Dəstək İctimai Birliyi 01 fevral 2023-cü il tarixindən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının maliyyələşdirdiyi “Mingəçevir, Goranboy və Yevlaxda Məcburi Köçkün İcmalarının Səfərbərliyi və Bacarıqlarının İnkişafı” layihəsini icra edəcəkdir.

UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

Layihənin məqsədi mövcud məcburi köçkün icmalarının dayanıqlığını artırmaq və onları İştirakli İcma İnkişafı və Usta Yanında Şagird Hazırlığı metodları vasitəsilə gələcək qayıdış prosesinin çətinliklərinin öhdəsindən gəlməyə hazırlamaq üçün potensialını gücləndirməkdir. Təxminən 3,500 nəfər məcburi köçkün müxtəlif layihə fəaliyyətlərindən faydalanacaqdır. Layihənin hədəf ərazisi Mingəçevir, Yevlax və Goranboy rayonlarıdır. Layihə 2023-cü ilin sonuna kimi aşağıdakı əsas nəticələrə nail olmağı hədəfləyir:

- 6 Məcburi köçkün icması səfərbər ediləcək;
- 6 İcma İnkişaf Şurası formalaşdırılacaq;
- 60 İİŞ üzvü məsləhətləşmələr, təlimlər və dəyirmi masalar vasitəsilə icma səfərbərliyi, icma təmsilçiliyi, prioritetləşdirmə, layihənin hazırlanması və idarə edilməsi, təhlükəsizlik, maliyyə idarəçiliyi və s. sahələr üzrə bacarıqlarını artıracaq;
- 6 icmada məcburi köçkün gənclərdən ibarət könüllülər qrupları formalaşacaq, onlar onlayn platformalar vasitəsilə əməkdaşlıq edəcək;
- 6 icmada 30 məcburi köçkün ailəsinin gəliri 20%-25% artacaq (bu göstərici “Ümid” SİD-in əvvəlki analoji layihələrdə əldə etdiyi nəticələrə əsaslanır);
- 10 yeni gəlir gətirən sahə yaradılacaq (gözəllik salonları, mobil telefon və kompüter təmiri, proqramlaşdırma xidmətləri, dərzi və s);
- 6 icma mərkəzi yaradılacaq.

*Şüarımız:*

*«İnsanlara mühit verin onlar xariqələr yaradacaq»*

## *Ünvanımız:*

**Baş ofis:**
**Bakı şəhəri, Ə.Cavad küç. 7A**
**Tel. (+99450) 310 60 22; (+99450) 528 75 94**
**E-poçt ünvanı: office@umid-sid.az**

*Bakı 2022*